# Kədərli göz yaşları arxasında fəxarət

**Dünya əfsanələrlə, gözəlliklərlə, eyni zamanda qəribəliklərlə doludur. Qarşımızda saysız-hesabsız hadisələri, möcüzələri seyr edirik. Dünyaya baxışımız dəyişir, zaman, vaxt gedir. Ancaq bir anlıq nəzərimizi toplayırıq və yönəldirik yaşadığımız doğma Azərbaycanımızın gözəlliklərinə. Dünyaya baxışımız dəyişsə də, vaxt, zaman keçsə də, ana vətənimiz Azərbaycana baxışımız, sevgimiz dəyişmir.**

Ulu Tanrı Azərbaycanı yaradanda ona bütün gözəllikləri bəxş etmişdir. Hər bir bölgəsinin özünəməxsus gözəlliyi, təbiəti, qədim tarixi vardır. Tarix deyərkən qədim Qəbələ torpağı ilk olaraq göz önündə canlanır. Qədim tarixə malik, cənnət guşəsi sayılan, füsunkar təbiətə sahib olan Qəbələ həmişə Azərbaycanın bol-bərəkətli, təbii gözəllikləri ilə zəngin bir bölgə, tanınmış dühalar diyarı kimi sevilmişdir.

İsmayıl bəy Qutqaşınlı ədəbi sahədə qələminin böyüklüyünü, dərin zəka sahibi olduğunu göstərdi. İlk göz həkimi Ümnisə Musabəyova Qəbələni Azərbaycana, Azərbaycanı dünyaya tanıtdı. Azərbaycanın kino tarixində İbrahim bəy Musabəyov öz əsərilə dərin iz buraxdı. Bu adları göstərməklə onu qeyd etmək istəyirəm ki, Qəbələ ziyalılarının Azərbaycan tarixində həqiqətən də böyük, səmərəli rolu vardır. Elm adamları, ziyalı insanlar xalqımızın düşünən beyni, görən gözü, dərin zəkası, fəxrimiz, iftixarımızdır.

Belə ziyalılardan biri də Absəddin Məmmədovdur. Absəddin Ağabala oğlu Məmmədov Qəbələ mahalının Həmzəlli kəndində 1919-cu ilin aprelində anadan olmuşdur. Kəndli ailəsində dünyaya göz açan Absəddin müəllim 10-cu sinfi bitirdikdən sonra Bakı Pedaqoji Texnikumuna daxil olmuşdur. Cəmi 3 il təhsil almış Absəddin müəllimin qiymət kitabçasında ancaq əla qiymətlər sıralanardı.

1932-1935-ci illər təhsil aldıqdan sonra o, doğma kəndinə qayıtmışdır. Hamı kimi böyük arzulara sahib olan Absəddin müəllim gənc nəslin gələcəyi uğrunda var qüvvəsilə çalışmışdır. Onun bir amalı, bir fikri vardır; yetişməkdə olan gənc nəslə elmin əsaslarını öyrətmək, onları əsl ziyalı kimi sabaha hazırlamaq.

1935-1937-ci illərdə kənddə hörmətli müəllimlərdən biri olmuş Absəddin Məmmədov 1937-1941-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsində təhsilini davam etdirmişdir. 1939-1941-ci illərdə qabaqcıl və əlaçı tələbə kimi dövlət təqaüdü almış Absəddin müəllim həmişə öz yaşıdlarından fərqlənmişdir. Gənc nəslə elmin əsaslarını müvəffəqiyyətlə öyrədən Absəddin Məmmədovun böyük arzu və istəkləri olmuşdur. Lakin heç kəsin arzulamadığı dəhşətli müharibə onun bu böyük arzu və istəklərini yarımçıq qoymuşdur.

1941-ci il avqust ayında hərbi xidmətə çağırılan Absəddin müəllim şərəfli bir döyüş yolu keçmişdir. Kapitan rütbəsinə kimi yüksəlmiş, Berlinin fəth edilməsi uğrunda döyüşlərdə fədakarlıq göstərmişdir. 1946-cı ildə hərbi xidmətdən qayıdan Absəddin

*(Davamı 50-ci səhifədə)*

*(Əvvəli 43-cü səhifədə)*

müəllim təhsilini tamamlamaq üçün yenidən APİ-yə qayıtmış, fərqlənmə diplomunu alaraq həmin institutda işə başlamışdır.

1954-cü ildən fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi, 1956-cı ildə isə dosent adını almışdır. Dəfələrlə dəyərli fəxri adlara layiq görülən Absəddin müəllim Qəbələnin nursaçan şöləsi kimi yorulmadan, əzm və fədakarlıqla elmin inkişafı yolunda əlindən gələni etmişdir.

Elmi sahədə yaradıcı, yorulmaz zəka sahibi olan Absəddin müəllimin bir neçə şəxsi sənədləri Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində qorunub saxlanılır. Muzeyin direktoru Xalis Məmmədov 1980-ci ildə onunla şəxsən görüşüb söhbətləşmiş, bu sənədlər də həmin vaxtdan yadigar və elmi inventar olaraq muzeyimizdə özünə yer almışdır.

Elm aləmində özünəməxsus yer tutmuş Absəddin müəllim gözəl ailə başçısı, qayğıkeş ata kimi də qəlblərdə yaşayır. Beş qız övladı böyüdən Absəddin müəllim xoşbəxt ailələrdən birinə sahib olmuşdur.

Bu yaxınlarda görkəmli alimin qızı Sevda xanım ailəsi ilə birlikdə muzeyimizdə olmuşdur. Absəddin müəllimin sənədlərinə nəzər yetirən Sevda xanım atası haqqında xatirələri söyləmişdir. Həm ata, həm də alim kimi ondan söz açan Sevda xanım Absəddin müəllimin hərtərəfli bir insan olduğunu vurğulamışdır. Sevda xanım atasının əli dəymiş sənədləri muzeyimizdə görəndə bir övlad kimi göz yaşlarını gizlədə bilməmişdir.

Söhbət zamanı Absəddin müəllimin bir insan, ata kimi nə qədər səmimi olduğunu təsdiqləmişdir. Absəddin müəllim ailədə övladlarının inam, güvənc yeri olmuşdur. Sevda xanımın kədərli göz yaşları arxasında bir fəxarət hissi də var idi. Çünki ata kimi, insan kimi dünyasını dəyişən Absəddin müəllim elm aləmində özünü təsdiqləmiş, qəlblərdə özünəməxsus yer tutmuşdur.

1981-ci ildə Azərbaycan SSR Əməkdar Ali Məktəb İşçisi fəxri adına layiq görülmüşdür.

**1983-cü il yanvarın 1-də Bakıda dünyasını dəyişsə də qəlblərdə yaşayır, çünki elm əhli ölmür. Xalqımız onların adlarını əbədiləşdirərək təbliğ edir, fərəh duyur. Elm aləmində uğurlar əldə etmiş Absəddin müəllimi xalqımız sevir, xatirəsini əziz tutur.**

**İlhamə SEYİDOVA,**
*Qəbələ rayon tarix-diyarşünaslıq muzeyinin kiçik elmi işçisi*